Ədəbiyyat qəzeti



22 may 2021-ci il



*Sən yazıçı, şair kimi mənə çox yaxın bir insansan. O illərdə sənin dediyin sözləri, yazdığın fikirləri deməyə bəzilərinin cəsarəti çatmırdı. Amma sən bir gənc şair olaraq, həm öz istedadından yaxşı istifadə etdin, həm də düşüncələrini cəsarəatlə yazdığına görə populyarlaşdın, hörmət qazandın və təsadüfi deyil ki, 1988-1989-cu illərdə xalq ayağa qalxanda da millətin önündə gedənlərdən biri olmusan. Şübhəsiz bu hərəkata ilham verənlər, onu müəyyən qədər istiqamətləndirənlər var idi. Onlardan biri də Sabir Rüstəmxanlıdır - öz alovlu nitqləri, səmimi sözləri, gözəl çıxışları və cəsarətli addımları ilə insanları daha da ilhamlandırırdı. Mən bunların hamısını qiymətləndirmişəm və indi də qiymətləndirirəm. Bu xalqın və xalq içərisində olan görkəmli insanların xidməti idi və həmin insanlardan biri də Sabir Rüstəmxanlıdır.*

*Sabir, mən hesab edirəm ki, o vaxtlar həqiqətən xalqın oyanmasında, inkişaf etməsində fəaliyyət göstərmiş adamlara indi heç kəs mənfi münasibət göstərə bilməz və göstərməməlidir. Məsələn, şəxsən sənin özün haqqında danışsaq, mən o vaxtlar sənin fəaliyyətini çox heyranlıqla müşahidə edirəm. Mən moskvada yaşayırdım, bəzən meydandakı mitinqi Moskva televiziyası göstərirdi. Səni orada tribunada görəndə mən sevinirdim. Çünki yadımdadır, mən burada işlədiyim zaman sən gənc yazıçı, şair kimi, ümumiyyətlə, bizim cəmiyyətdə, o cümlədən mənim nəzərimdə çox hörmətli bir adam idin. Görəndə ki, Sabir Rüstəmxanlı xalqın qarşısında çıxış edir və ədalətsizliyi ittiham edir, bu, məni sevindirirdi.*

**Heydər ƏLİYEV**

*Ümummilli lider*